| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 04.04.2017 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1313 |
| **ADI** | Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 05-04-2017, Nəşr Nömrəsi: 69), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2017, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 527) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 05.04.2017 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 110.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201704041313 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 06.04.2017 |

**Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq, beynəlxalq reytinqlərdə mövqeyini yaxşılaşdırmaq, enerji təchizatı şəbəkələrinə qoşulma prosedurunu və müddətini optimallaşdırmaq, göstərilən xidmətləri daha keyfiyyətli, rahat və innovasiyaların tətbiqi ilə həyata keçirmək, bu sahədə şəffaflığı və istehlakçı məmnunluğunu təmin etmək məqsədilə **qərara alıram:**

1. "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, *layihə* sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası" təsdiq edilsin (əlavə olunur).[1]

2. Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, *layihə* sənədlərinin verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması ilə bağlı işlərin həyata keçirilməsinə nəzarət etmək məqsədilə aşağıdakı tərkibdə Texniki Şura yaradılsın:[2]

**Şuranın sədri**

Azərbaycan Respublikasının Energetika Nazirliyinin nümayəndəsi

**Şuranın üzvləri:**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin nümayəndəsi;

*Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndəsi;*[3]

~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyinin nümayəndəsi;

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi;

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin* nümayəndəsi;

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin nümayəndəsi;

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin nümayəndəsi;

yerli icra hakimiyyəti orqanlarının nümayəndələri.

3. Müəyyən edilsin ki:

3.1. sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, *layihə* sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması ilə bağlı müraciətlər *kiçik və orta biznes evləri və* "ASAN Kommunal" mərkəzləri ("ASAN Kommunal" mərkəzləri yaradılmayan regionlarda – bu mərkəzlər yaradılanadək "ASAN Xidmət" mərkəzləri) vasitəsilə həyata keçirilir;[4]

3.2. Texniki Şuranın fəaliyyəti müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə və göstərilən xidmətlərin təkmilləşdirilməsi məqsədilə innovasiyaların tətbiqi yolu ilə "ASAN Xidmət" mərkəzlərinin *və kiçik və orta biznes evlərinin* fəaliyyət prinsipləri və standartları əsasında təşkil edilir; [5]

3.3. ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyinin, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin və yerli icra hakimiyyəti orqanlarının nümayəndələri yalnız müvafiq inzibati ərazi vahidləri üzrə *kiçik və orta biznes evlərində və* "ASAN Kommunal" mərkəzlərində ("ASAN Kommunal" mərkəzləri yaradılmayan regionlarda – bu mərkəzlər yaradılanadək "ASAN Xidmət" mərkəzlərində) yaradılmış Texniki Şuranın tərkibinə daxil edilirlər.[6]

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. beynəlxalq təcrübəni nəzərə almaqla, "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. əhalinin elektrik enerjisinə artan tələbatının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə 2018–2020-ci illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsi layihələrindəki dövlət investisiya proqramlarında Bakı şəhərində 220 kV-luq üç yarımstansiyanın tikintisi və maliyyələşdirilməsinin nəzərdə tutulması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti:

5.1. rayon və şəhərlər üzrə enerji təchizatı şəbəkələrinin hər bir yarımstansiya və transformator məntəqəsi, habelə

onlarda olan sərbəst güclər və qoşulma imkanları haqqında məlumatların (mütəmadi yenilənməklə) bir ay müddətində Azərbaycan Respublikasının Energetika Nazirliyinə verilməsini təmin etsin;

5.2. bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulmuş məlumatların (mütəmadi yenilənməklə) iki ay müddətində öz rəsmi internet saytında yerləşdirilməsini təmin etsin.

6. Azərbaycan Respublikasının Energetika Nazirliyi:

6.1. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq verilən məlumatların üç ay müddətində öz rəsmi internet saytında yerləşdirilməsini təmin etsin;

6.2. bu Fərmanın 2-ci hissəsində qeyd olunan dövlət orqanlarının və qurumlarının hər birindən bir nümayəndə olmaqla, on gün müddətində hər bir *kiçik və orta biznes evində və* "ASAN Kommunal" mərkəzində ("ASAN Kommunal" mərkəzi yaradılmayan regionlarda – bu mərkəz yaradılanadək "ASAN Xidmət" mərkəzində) Texniki Şuranın formalaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.[7]

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə birlikdə beynəlxalq təcrübəni və bu Fərmanla təsdiq edilmiş Qaydanın tələblərini nəzərə almaqla, sahibkarların tələb olunan gücü 150 kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, *layihə* sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması prosedurunun sadələşdirilməsi, bununla bağlı tələb olunan müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

8. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə və bu Fərmanın 2-ci hissəsində qeyd olunan dövlət orqanlarına və qurumlarına tapşırılsın ki, bu Fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Texniki Şuranın fəaliyyətinə lazımi kömək göstərilməsini, onun müraciəti əsasında zəruri məlumatların və sənədlərin təqdim olunmasını təmin etsinlər.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

10. Azərbaycan Respublikasının Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, *Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,* Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, *Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi* və rayon (şəhər) icra hakimiyyəti orqanları bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.[8]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 aprel 2017-ci il
1313

Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

## Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, *layihə* sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası[9]

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin (bundan sonra – tikinti obyekti) elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, *layihə* sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması üzrə proseduru və tələbləri müəyyən edir.

*1.1-1. Büdcə təşkilatlarının, dövlətin adından yaradılan publik hüquqi şəxslərin, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və aktiv istehlakçıların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması üzrə prosedur və tələblər də bu Qayda ilə müəyyən edilir.*[10]

1.2. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. Texniki Şura – Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanına əsasən sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin və *layihə* sənədlərinin verilməsini, habelə enerji təchizatı şəbəkəsinə qoşulmasını həyata keçirmək məqsədilə yaradılan, *kiçik və orta biznes evlərində (bundan sonra – KOB evləri) və* "ASAN Kommunal" mərkəzlərində ("ASAN Kommunal" mərkəzləri yaradılmayan regionlarda – bu mərkəzlər yaradılanadək "ASAN Xidmət" mərkəzlərində) (bundan sonra – mərkəzlər) fəaliyyət göstərən kollegial qurum;[11]

1.2.2. sahibkar – əsas məqsədi müstəqil surətdə əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən mənfəət götürülməsi olan hüquqi və fiziki şəxslər;

1.2.3. texniki şərtlər – elektrik enerjisi ilə təchiz edilməsi nəzərdə tutulan tikinti obyektinin enerji təchizatı şəbəkəsinə

(bundan sonra – ETŞ) qoşulması ilə əlaqədar *layihə* sənədlərinin hazırlanmasına əsas verən və elektrik enerjisinin verilməsi ilə bağlı mühəndis-texniki parametrləri özündə əks etdirən texniki sənəd;

1.2.4. enerji təchizatı müəssisəsi (bundan sonra – ETM) – icazə əsasında əhalinin və digər istehlakçıların elektrik enerjisi ilə təchizatına təminat verən hüquqi şəxs;

1.2.5. sifarişçi – ETŞ-yə qoşulması nəzərdə tutulan tikinti obyektinə və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinə mülkiyyət və ya digər əşya hüququ əsasında sahiblik edən sahibkar;

1.2.6. tikinti obyekti – tikinti fəaliyyəti prosesində yaradılan və ya yaradılmış bina və ya qurğular;

*1.2.7. qoşulma haqqı – ETM tərəfindən layihə sənədlərinin hazırlanmasına, ETŞ-nin gücləndirilməsinə, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, elektrik qurğularının ETŞ-yə fiziki qoşulmasına (istifadə olunan mal-materiallara çəkilmiş xərclər də daxil olmaqla) görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bu Qaydanın 1.11-ci bəndinə uyğun olaraq müəyyən etdiyi vahid məbləğ;*

*1.2.8. balans mənsubiyyəti sərhədi – ETM ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyətini müəyyənləşdirən ayırma nöqtəsi;*

*1.2.9. qoşulma aktı – sifarişçinin tikinti obyektlərinin ETŞ-yə qoşulmasını təsdiq edən sənəd;*

*1.2.10. qoşulma nöqtəsi – bu Qaydanın 3.1-ci bəndinə uyğun olaraq, ETŞ-yə fiziki qoşulma yeri;*[12]

*1.2.11. aktiv istehlakçı – elektrik enerjisini istehlak etməklə yanaşı, ənənəvi, alternativ və bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsal edən hüquqi və ya fiziki şəxs;*

*1.2.12. mövcud 0,4 kV-luq şəbəkə – tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazidən 400 metrdən çox olmayan məsafədə quraşdırılmış 0,4 kV-luq transformatorun mövcud olduğu elektrik şəbəkəsi.*[13]

1.3. Bu Qaydaya uyğun olaraq, hər bir sifarişçinin ETŞ-yə qoşulma hüququ vardır.

1.4. Sifarişçinin tikinti obyektinin *ETŞ-yə* qoşulması aşağıda göstərilən *iki mərhələdən ibarət olmaqla, ümumilikdə 20 (iyirmi)* gündən gec olmayaraq təmin edilməlidir:[14]

*1.4.1. sifarişçinin KOB evlərinə və ya mərkəzlərə müraciəti, qoşulma haqqının ödənilməsi, texniki şərtlərin, layihə sənədlərinin hazırlanması ~~və sifarişçiyə təqdim edilməsi (göndərilməsi)~~;*[15]

1.4.2. ~~layihə-smeta sənədlərinin dəyərinin ödənilməsi,~~ tikinti-quraşdırma işlərinin aparılması və ETŞ-yə fiziki qoşulma, *tikinti obyektinə elektrik enerjisinin verilməsi, texniki şərtlərin və layihə sənədlərinin təqdim edilməsi, ETM ilə sifarişçi arasında qoşulma aktının (iki nüsxədə) və elektrik enerjisinin alqı-satqı müqaviləsinin (iki nüsxədə) imzalanması*;[16]

~~1.4.3. tikinti obyektinə elektrik enerjisinin verilməsi.~~[17]

1.5. Bu Qaydada nəzərdə tutulan müddətlərin axımı sifarişçinin müraciət etdiyi tarixdən hesablanır.

1.6. Bu Qaydada nəzərdə tutulmamış əsaslara görə sifarişçinin tikinti obyektinin ETŞ-yə qoşulmasından imtina edilə bilməz.

1.7. Texniki şərtlərin hazırlanması və verilməsi üçün haqq ödənilmir.

~~1.8. Texniki şərtlər 1 (bir) il müddətinə verilir. Bu müddətdə sifarişçi ilə ETM arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanmadıqda verilmiş texniki şərtlər qüvvədən düşmüş hesab edilir.~~[18]

1.9. Sahibkarların tikinti obyektlərinə əlavə güc alması (bu şərtlə ki, əlavə güc verildiyi halda tikinti obyektinə bütövlükdə veriləcək güc 150 kVt-dan çox olmasın) tələb olunduqda, onlara verilmiş mövcud texniki şərtlər nəzərə alınmaqla, bu Qaydaya uyğun olaraq əlavə gücün alınması üçün yeni texniki şərtlər verilməlidir. *Əlavə gücün alınması üçün yeni texniki şərtlər verilərkən sifarişçi tələb etdiyi əlavə gücə uyğun qoşulma haqqı ödəyir.*[19]

1.10. Sifarişçi *KOB evləri və ya mərkəzlər tərəfindən* ona verilmiş texniki şərtləri və *layihə* sənədlərini itirdikdə, o, həmin sənədlərin dublikatının alınması üçün mərkəzlərə müraciət etməlidir. Həmin sənədlərin dublikatı müraciət edildiyi gün mərkəzlər vasitəsilə sifarişçiyə ödənişsiz verilməlidir.[20]

*1.11. Qoşulma haqqının məbləğlərini kənd təsərrüfatı və sənaye təyinatlı, habelə ticarət, ictimai iaşə, məişət və digər növ xidmət göstərən tikinti obyektləri üzrə ayrılıqda və sahibkarların tələb olunan elektrik enerjisinin gücünə mütənasib olaraq diferensiallaşdırılmış qaydada Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir. Qoşulma haqqı sifarişçinin tikinti obyektinin ETŞ-yə qoşulmasının 20 (iyirmi) gün müddətində və daha az müddətdə həyata keçirilməsinə görə fərqli məbləğlərdə müəyyən edilir.*[21]

## 2. Texniki şərtlərin və *layihə* sənədlərinin alınması üçün müraciət edilməsi, habelə həmin sənədlərin hazırlanması və verilməsi

2.1. Texniki şərtlərin və *layihə* sənədlərinin alınması üçün sifarişçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada ərizə ilə (elektron və ya yazılı formada) tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazi üzrə *KOB evlərindəki və ya* mərkəzlərdəki Texniki Şuraya müraciət edir. Texniki Şuraya müraciətlərin qəbulu, qeydiyyatı, habelə sənədlərin baxılması və verilməsi ilə əlaqədar katiblik funksiyaları Texniki Şuranın üzvü olan ETM-in nümayəndəsi tərəfindən həyata keçirilir.

*2.1-1. Sifarişçi bu Qaydanın 2.1-ci bəndinə uyğun olaraq texniki şərtlərin və layihə sənədlərinin alınması üçün müraciət edərkən ETM-in bank hesabına tələb etdiyi elektrik enerjisinin gücünə uyğun olaraq qoşulma haqqı ödəyir.*[22]

2.2. Ərizədə aşağıdakı məlumatlar qeyd edilməlidir:

2.2.1. sifarişçinin VÖEN-i;

2.2.2. sifarişçinin ETŞ-yə qoşulması nəzərdə tutulan tikinti obyektinin və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin ünvanı (olduğu yer);

2.2.3. tələb olunan elektrik enerjisinin gücü və keyfiyyət göstəriciləri (elektrik qurğularının aktiv və reaktiv gücü, etibarlılıq üzrə kateqoriyası);

2.2.4. sifarişçinin poçt və elektron ünvanı (elektron ünvanı olduqda).

2.3. Ərizəyə ETŞ-yə qoşulması nəzərdə tutulan tikinti obyekti və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsi üzərində sifarişçinin mülkiyyət və ya digər əşya hüququnu təsdiq edən sənədin surəti və *qoşulma haqqının* ödənilməsini təsdiq edən sənəd əlavə edilməlidir.[23]

~~2.4. Layihə-smeta sənədlərinin Texniki Şura tərəfindən verilməsinə görə hər 1 (bir) kVt gücə görə ƏDV daxil olmaqla 2,5 manat (iki manat əlli qəpik) vəsait ödənilməlidir.~~[24]

2.5. Sifarişçidən bu Qaydada nəzərdə tutulmayan məlumatlar və sənədlər tələb edilə bilməz.

2.6. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə və bu Qaydanın 2.1-ci bəndinin ikinci cümləsinə uyğun olaraq, Texniki Şuranın üzvü olan ETM nümayəndəsi sifarişçinin *KOB evləri və ya* mərkəzlər vasitəsilə şəxsən təqdim etdiyi və ya elektron formada göndərdiyi ərizəsini və ona əlavə olunmuş sənədləri qəbul etməli və qeydiyyata almalıdır.

2.7. Qeydiyyat zamanı həmin sənədlərin bu Qaydanın 2.2-ci və 2.3-cü bəndlərinin tələblərinə uyğunluğu yoxlanılır. Sənədlərdə aradan qaldırılması mümkün olan, imtinaya əsas verməyən çatışmazlıqlar aşkar edildikdə, həmin çatışmazlıqların aradan qaldırılmasının zəruriliyi barədə məlumat dərhal sifarişçiyə bildirilir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir.

2.8. Sifarişçi həmin çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) gün müddətində aradan qaldırmalıdır. Bu zaman bu Qaydanın 1.4-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Çatışmazlıqların aradan qaldırıldığı barədə sifarişçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

2.9. Sifarişçi sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 2.8-ci bəndində göstərilən müddətdə aradan qaldırmadıqda, müraciətin baxılmamış saxlanılması haqqında Texniki Şura tərəfindən qərar qəbul edilir və bu barədə məlumat 2 (iki) gün müddətində *KOB evləri və ya* mərkəzlər və ya sifarişli poçt göndərişi vasitəsilə sifarişçiyə təqdim edilir və ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir. Texniki Şura tərəfindən müraciətin baxılmamış saxlanılması haqqında qərar qəbul olunduqda, sifarişçinin *ödədiyi qoşulma haqqı ETM tərəfindən* 1 (bir) gün müddətində geri qaytarılmalı, sifarişçiyə təqdim edilən və ya göndərilən məlumatda vəsaitin əldə olunma qaydası əks olunmalıdır.[25]

2.10. Texniki Şura bu Qaydanın 2.6-cı bəndində nəzərdə tutulan sənədləri icraata qəbul etdikdən sonra, elektrik xətlərinin keçəcəyi ərazinin xüsusiyyətlərinə uyğun olaraq, elektrik xətlərinin çəkilməsinin razılaşdırılması tələb olunan qurumların, habelə avtomobil yolları mülkiyyətçilərinin (sahiblərinin), yerli icra hakimiyyəti orqanlarının və qanunla nəzərdə tutulan digər qurumların rəyinin alınmasını təmin etməlidir. Bu məqsədlə Texniki Şura bu Qaydanın 2.6-cı bəndində nəzərdə tutulan sənədləri icraata qəbul etdiyi gündən etibarən 1 (bir) gün ərzində üzv qurumlarla birlikdə tikinti obyektinə ən yaxın məsafədə yerləşən ~~lazımi gücə malik~~ enerji mənbəyini, həmin mənbədən tikinti obyektinə elektrik enerjisinin (gücünün) verilməsi üçün optimal trassanı (yolu) və həmin trassa (yol) üzrə elektrik xətlərinin çəkilməsi üçün rəyi tələb olunan qurumları müəyyənləşdirir.[26]

2.11. Bu Qaydanın 2.10-cu bəndinə əsasən, Texniki Şura tikinti obyektinə elektrik enerjisi (gücü) verilməsi üçün seçilən trassa (yol) üzrə rəyi tələb olunan qurumlara həmin gün müraciət edir. Texniki Şura tərəfindən edilmiş müraciətə və təqdim olunmuş sənədlərə həmin qurumlar 3 (üç) gündən gec olmayaraq münasibət bildirməlidirlər. Həmin qurumlar tərəfindən münasibət bildirilərkən, *layihə* sənədlərində nəzərə alınması üçün trassanın (yolun) razılaşdırılmasına aid texniki tələblər və işlərin icrasına tələb olunan vəsait ayrıca göstərilir. Həmin müddət ərzində münasibət bildirilmədikdə məsələ razılaşdırılmış hesab edilir.

2.12. Texniki Şura qurumların razılığını aldığı gün texniki şərtlər və *layihə* sənədlərinin hazırlanması üçün ETM-ə müvafiq sənədlərlə müraciət edir. ETM *6 (altı)* gün müddətində sifarişçinin tikinti obyektinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtləri və *layihə* sənədlərini hazırlayır. ~~Texniki şərtlər və layihə-smeta sənədləri hazırlanarkən, sifarişçinin tikinti obyektinə ən yaxın məsafədə olan lazımi gücə malik enerji mənbəyi müəyyən edilməlidir.~~ Sənədlərin hazırlanması prosesi çərçivəsində tikinti obyektinə yerində baxış zamanı sahibkarın cəlbi nəzərdə tutulmur.[27]

*2.13. ETM-in hazırladığı texniki şərtlər və layihə sənədləri sifarişçiyə məlumat üçün təqdim edilir (göndərilir). Sifarişçi texniki şərtlərdə göstərilən qoşulmaya dair tələblərin yerinə yetirilməsinə görə məsuliyyət daşımır.*[28]

~~2.14. ETM tərəfindən texniki şərtlər və *layihə* sənədləri Texniki Şuraya təqdim olunduqdan sonra Texniki Şuranın üzvü olan ETM nümayəndəsi tərəfindən həmin gün sifarişçiyə mərkəzlər vasitəsilə təqdim edilir və ya sifarişli poçtla və sifarişçinin ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir.~~[29]

*2.15. Texniki şərtlər bu Qaydanın 1 nömrəli əlavəsində göstərilən birtipli formada tərtib edilir.*

*2.16. Texniki şərtlər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsi ilə müəyyən edilmiş tələblər və ərazi planlaşdırılma sənədləri nəzərə alınmaqla verilir.*[30]

2.17. Tikintiyə icazə icraatı çərçivəsində şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun olaraq, tikinti obyekti üçün texniki şərtlər sifarişçinin *tikintiyə icazə verən orqana (quruma) müraciətinə əsasən həmin orqanın (qurumun)* sorğusu əsasında bu Qaydada nəzərdə tutulmuş tələblərə əməl olunmaqla verilir. *Həmin texniki şərtlər Azərbaycan Respublikasının Tikinti və Şəhərsalma Məcəlləsinin 77.1-ci maddəsində nəzərdə tutulmuş müddətə verilir. Bu müddətdə sifarişçi ilə ETM arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanmadıqda, verilmiş texniki şərtlər qüvvədən düşmüş hesab edilir.*[31]

2.18. *Tikintiyə icazə verən orqan (qurum)* tərəfindən *KOB evləri və ya* mərkəzlər vasitəsilə göndərilən sorğuya sifarişçinin ərizəsinin surəti ilə yanaşı, tikinti ərazisinin vəziyyət planı, tikinti obyektinin yerləşəcəyi torpaq sahəsi üzərində sifarişçinin mülkiyyət və ya digər əşya hüququnu təsdiq edən sənədin surəti, obyektin istismarı üçün mühəndis-kommunikasiya təminatına dair tələbat göstəriciləri barədə sənədlər və obyektin tikintisinə dair layihənin surətləri əlavə edilir.[32]

*2.19. ETM-in KOB evlərindəki və mərkəzlərdəki nümayəndəsi tikintiyə icazə verən orqanın (qurumun) sorğusunu və sifarişçinin ərizəsini, tikintiyə icazə verən orqan (qurum) isə sifarişçinin ərizəsini qəbul etməkdən imtina edə bilməz.*[33]

*2.20. Sifarişçinin inşa ediləcək tikinti obyektinin ETŞ-yə qoşulması sifarişçi tərəfindən həmin tikinti obyektinin tikintisinə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə alındıqdan sonra onun müraciətinə əsasən, bu Qaydaya uyğun olaraq həyata keçirilir.*[34]

### 3. *Tikinti-quraşdırma* işlərinin aparılması və ETŞ-yə fiziki qoşulma[35]

*3.1. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşəcəyi torpaq sahəsindən (ETM-in müəyyən etdiyi yerdən) ETŞ-yə qoşulma nöqtəsinədək elektrik xətlərinin çəkilməsini və tikinti-quraşdırma işlərini ETM həyata keçirir. Bu zaman sifarişçi bu Qaydanın 1.2.7-ci yarımbəndində nəzərdə tutulan qoşulma haqqından əlavə, heç bir haqq ödəmir.*[36]

*3.2. Qoşulma nöqtəsi tikinti obyektlərinə ən yaxın məsafədə yerləşən yarımstansiyada, transformator məntəqəsində, elektrik xəttində, paylayıcı lövhədə olmalıdır.*[37]

*3.3. Tikinti obyektinin ETŞ-yə qoşulması və ya tikinti obyektinin yerləşəcəyi torpaq sahəsində (ETM-in müəyyən etdiyi yerdə) ETŞ-yə qoşulma ilə əlaqədar elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri bu Qaydanın 2-ci hissəsinə uyğun olaraq verilmiş texniki şərtlərə əsasən 10 (on) gün müddətində yerinə yetirilir. Nəzərdə tutulmuş işlər yerinə yetirildikdən sonra 1.4.2-ci yarımbənddə göstərilən sənədlər sifarişçiyə təqdim olunur.*[38]

*3.4. Elektrik enerjisi sayğacı sifarişçinin tikinti obyektinin yerləşdiyi torpaq sahəsinin sərhədində (girişində), qidalandırıcı kabelin uclarında, ETM nümayəndəsinin maneəsiz baxış keçirə biləcəyi yerdə quraşdırılmalıdır.*

*3.5. Sifarişçinin sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada tənzimlənir.*

*3.6. ETM ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyəti sərhədi elektrik enerjisi sayğacının quraşdırıldığı yerlə və qoşulma aktı ilə müəyyən edilir.*

*3.7. ETM ilə sifarişçi arasında elektrik qurğularının istismarına görə məsuliyyət sərhədi balans mənsubiyyəti sərhədi ilə müəyyən edilir.*[39]

*3.8. Qoşulma aktı imzalandığı halda ETM elektrik enerjisinin alqı-satqı müqaviləsini bağlamaqdan imtina edə bilməz.*

*3.9. ETM ilə sifarişçi arasında qoşulma aktı bu Qaydanın 2 nömrəli əlavəsində göstərilən birtipli formada tərtib edilir.*[40]

### ~~4. Tikinti obyektinə elektrik enerjisinin verilməsi~~[41]

-

~~*4.1. Bu Qaydanın 3-cü hissəsində nəzərdə tutulmuş işlər yerinə yetirildikdən sonra 2 (iki) gün müddətində sifarişçinin və ETM-in nümayəndələrinin iştirakı ilə görülən işlərə baxış keçirilir və bunun nəticəsi olaraq həmin gün ETM ilə sifarişçi arasında iki nüsxədə qoşulma aktı imzalanır, elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanır və ETM elektrik enerjisinin verilməsini təmin edir.*~~[42]

~~4.2. *Qoşulma* aktı imzalandığı halda, ETM tərəfindən elektrik enerjisinin alqı-satqı müqaviləsinin bağlanmasından imtina edilə bilməz.~~[43]

~~4.3. İstismara qəbul aktının verilməsi üçün baxış keçirilərkən bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş işlərin texniki şərtlərə və layihə-smeta sənədlərinə uyğun aparılmadığı müəyyən olunduqda, bu barədə sifarişçiyə və elektrik xətlərini çəkən və tikinti-quraşdırma işlərini yerinə yetirən müəssisəyə 2 (iki) gün müddətində aradan qaldırılmalı çatışmazlıqlar göstərilməklə əsaslandırılmış cavab verilməlidir.~~

~~*4.4. ETM ilə sifarişçi arasında qoşulma aktı bu Qaydanın 2 nömrəli əlavəsində göstərilən birtipli formada tərtib edilir.*~~[44]

~~4.5. Elektrik xətlərini çəkən və tikinti-quraşdırma işlərini yerinə yetirən müəssisə göstərilən çatışmazlıqlarla razılaşmadıqda, həmin müəssisə bununla bağlı Texniki Şuraya müraciət edə bilər. Bu halda Texniki Şura mübahisə yaradan çatışmazlıqlarla bağlı tikinti quraşdırma işləri aparılan əraziyə 1 (bir) gün müddətində baxış keçirir və məsələ ilə bağlı qərar qəbul edir.~~

*“Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası”na 1 nömrəli əlavə*

***Sahibkarların elektrik enerjisi (gücü) alması üçün***

***TEXNİKİ ŞƏRTLƏR*** _______

**“_____” _______________ 20 __ il**

____________________________________________________________

*(texniki şərtləri alan şəxsin soyadı, adı, atasının adı, təşkilatın adı, ünvanı)*

*surəti: Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinə*

____________________________________________________________

*(mərkəzi idarə və ya onun yerli strukturu)*

____________________________________________________________

*(müraciət sənədinin daxilolma nömrəsi və tarixi)*

*Sifarişçinin tikinti obyektlərinin və ya elektrik qurğularının enerji təchizatı şəbəkəsinə qoşulması:*

*1. Tələb olunan güc: ________________________*
*2. Qoşulma gərginliyi: ______________________*
*3. Elektrik təchizatının etibarlığına görə kateqoriyası:__________________*
*4. Qoşulma nöqtəsi:*

____________________________________________________________

*(yarımstansiya, transformator məntəqəsi, elektrik xətti və ya paylayıcı lövhə)*

*5. Quraşdırılacaq elektrik xətti: ___________________________*
*6. Tikinti obyektində quraşdırılacaq elektrik avadanlıqları:_____________*
*7. Uçot cihazları:_______________________*
*8. Uçot cihazlarının quraşdırılma nöqtəsi: _______________________*

***Təsdiq edirəm:***

*Texniki şərti verən enerji təchizatı müəssisəsi:*

____________________________________________________________
____________________________________________________________

*"__________"_______________20____ il*

***M.Y.***

*"Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"na 2 nömrəli əlavə*

***Elektrik şəbəkəsinə qoşulma***

***AKTI***

*______ ________ 20_____ il* *__________şəhəri (rayonu)*

*Biz, aşağıda imza edənlər:*

*1. Enerji təchizatı müəssisəsinin nümayəndəsi*

____________________________________________________________

*(vəzifəsi, soyadı, adı, atasının adı)*

*2. Sifarişçi (və ya nümayəndəsi)*

____________________________________________________________

*(vəzifəsi, soyadı, adı, atasının adı)*

____________________________________________________________

*(tikinti obyektinin yerləşdiyi ünvan)*

*ünvanında yerləşən tikinti obyektinədək quraşdırılmış elektrik xətləri və qurğularına baxış keçirdik. Elektrik xətləri və qurğularının layihəyə və tikinti normalarına uyğun quraşdırıldığı və elektrik şəbəkəsinə qoşulmaq üçün hazır olduğu müəyyən edildi.*

*Layihə sənədi: ___________ __________tarixində verilmişdir.*

*Qeyd edilənləri nəzərə alaraq, tikinti obyektinin enerji təchizatı müəssisəsinin şəbəkəsinə qoşulmasına qərar verildi.*

*Qoşulma başa çatdırıldı: ____________ _____________*

*(tarix) (saat)*

*Enerji təchizatı müəssisəsi ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyəti sərhədi aşağıdakı kimi müəyyən edildi:*

___________________________________________________________________

*(balans mənsubiyyəti sərhədinin müəyyən olunduğu yer)*

___________________________________________________________________

*İmzalar:*

___________________ ________________________

*(soyadı, adı)*

___________________ ________________________

*(soyadı, adı)*

___________________ ________________________

*(soyadı, adı)*

***M.Y.***

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 28 fevral 2018-ci il tarixli **1857** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 mart 2018-ci il, 47, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 221)**
2. 1 avqust 2018-ci il tarixli **228** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1678)**
3. 25 dekabr 2018-ci il tarixli **437** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2018-ci il, 293, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2594)**
4. 10 aprel 2019-cu il tarixli **616** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 11 aprel 2019-cu il, 77, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 616)**
5. 4 iyun 2020-ci il tarixli **1050** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 5 iyun 2020-ci il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 692)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 28 fevral 2018-ci il tarixli **1857** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 mart 2018-ci il, 47, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 221)** ilə 1-ci, 2-ci, 7-ci hissələrdə və 3.1-ci bənddə "**layihə-smeta**" sözləri "**layihə**" sözü ilə əvəz edilmişdir.

[2] 28 fevral 2018-ci il tarixli **1857** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 mart 2018-ci il, 47, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 221)** ilə 2-ci hissədən "**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında**" sözləri çıxarılmışdır və həmin hissədə **"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin**" sözləri "**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[3] 25 dekabr 2018-ci il tarixli **437** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2018-ci il, 293, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2594)** ilə 2-ci hissəyə "**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin nümayəndəsi;**" sözlərindən sonra "**Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndəsi;** " sözləri əlavə edilmişdir.

[4] 25 dekabr 2018-ci il tarixli **437** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2018-ci il, 293, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2594)** ilə 3.1-ci bəndə "**müraciətlər**" sözündən sonra "**kiçik və orta biznes evləri və**" sözləri əlavə edilmişdir.

